

■ Zahid XƏLİL



## BİZİM BAKI BULVARI

Xəzərin sahilinə
Düşən cənnət parçası.
Meydan, meydan çiçəklər
Onun nişan xonçası.

Ömrü boyu vəsf edir
Bulvarı göy ləpələr.
Günəş onun başına
Hər səhər zər səpələr.

Büllur saraya baxın
Çimən mələkdi, bəlkə?!
Xəzərdə düşüb qalan
Bir çərpələngdi bəlkə?!

Bəlkə gül çələngidi
Suların qucağında!
Bəlkə canlı nəğmədi,
Xəzərin qucağında!

Ona sevgi bəsləyən
Gör nə qədər dalğa var?
Şir kimi nərə çəkir
Ətrafında dalğalar.

Günəş şəfəqlərindən
Don geyən bayrağa bax.
Ayağının altında
Döyünən torpağa bax.

Səninkidir bu bulvar,
Qürurla gəz içində!
Bələsini tapmazsan
Nə Madriddə, nə Çində.

Xəzərin göy suları,
Bərq vurur mərmər kimi.
Ləpələr naz eyləyir,
Təzə gəlinlər kimi.

Ağaclar uçub gəlib
Dünyanın hər yerindən
Barselon bulvarından,
Ərəbistan çölündən.

Qum düzündən adlayıb,
Odun içindən keçib.
Neçə-neçə ölkədən,
Həbəşdən, Çindən keçib.

Bağbanlar ağaclardan
Yaşıl çələng toxuyur.
Bulvar da borclu qalmır
Yaşıl nəğmə oxuyur.

Xəzər bir igid oğlan
Başında eşq havası.
Önündə rəqs eyləyir,
Suların ağ sonası.

Göy Xəzərin eşqinə
Gəlib bu nazlı qızlar.
Bu leyli sevdasını
Hamı sevər, əzizlər.

Milyonlarla gül-çiçək
Düşüb onun baxtına.
Bizim Bakı bulvarı
Dünya bulvarlarının
Çevrilib paytaxtına.

## AY VƏTƏN

İki səhifəlik kitabdı dağlar,
Min ildir oxuyur onu bulaqlar.
Can desən can deyər sərt qayalıqlar.
Can deyən sözündən öpüm, ay Vətən.

Şükür üzümüzə güldü bu yaz da.
Axır xoşbəxt, xoşbəxt Kür də, Araz da.
Quşlar cəh-cəh vurur, eyni avazda.
Şirin avazından öpüm, ay Vətən.

Çaylar qılınc kimi bölüb dərəni,
Əlik qorxa-qorxa keçir bərəni.
Gördüm, heyrətləndim bu mənzərəni.
Qoy sənin gözündən öpüm, ay Vətən.

Əlinlə hər tərəf laləzar oldu.
Düşmənin qisməti ahu-zar oldu.
Hara ayaq basdın çəmənzar oldu
Qoy ayaq izindən öpüm, ay Vətən.

Sinəmdə çağlayan sözündür sənin,
Gözümə nur verən gözündür sənin.
Laləli çəmənlər üzündür sənin.
O gözəl üzündən öpüm, ay Vətən.

Yaşıl don biçibdi yaz çöllərinə,
Sonalar yaraşır Göygöllərinə.
Qayalar bənzəyir dağ kəllərinə,
Qaya buynuzundan öpüm, ay Vətən.

## XƏLİL RZA ULUTÜRK

Ucaboylu,
Enlikürək
Xəlil Rza!
Şux qamətli
Gözəl,
Göyçək
Xəlil Rza!
İrigözlü,
Dirigözlü
Xəlil Rza!
Şeirləri
Titrədirdi
Salonları.
Düşməniydi
Yaltaqların
Qorxaqların
Xəlil Rza!
Danışanda
Görəydiniz
Siz
Onları.
Hər kəlməsi
Qasırğaydı
Tufan idi!
Düz söz demək
İgidlikdi
Zaman elə
Zaman idi.
İti sözü
Qəti sözü
Yayılırdı
Ürəklərə.
Elə bil ki,
Sarı yağdı.
Əritdilər
Sözlərini
Bir qram da
Ərp çıxmadı.
Onun
Qızıl sözlərinin
Heç biri də
Qəlp çıxmadı.
Məclislərə şölə salan
Çıraq idi
İgid idi,
Qorxmaz idi,
Qoçaq idi.
Məhəbbəti
Çiçək kimi
Təzə-tərdi
Qəşəng idi.
Nifrətisə
İldırımdı.
Güllə idi,
Fişəng idi.
O zaman ki,
Qaniçənlər
Şahə qalxdı
Azğın oldu,
Xəlil Rza
qartallaşdı,
quzğun oldu.
Od yağanda
Başımıza,
Od püskürdü
Xəlil Rza!
Baxıb gördük
Yanar dağdı,
Dəli Kürdü
Xəli Rza!
Lofertova
Zindanında
Çıraq oldu,
İşıq saçdı!
Azərbaycan
Gəncliyinə
Mayak oldu!
Ona görə
Bu torpaqdan
Zülmət qaçdı.
Mənim gənclik
İllərimin
Dostu, yarı
Xəlil Rza!
Təkbaşına
Yarıb keçdi
Tufanları
Xəlil Rza!

## QAYALARDA BİTƏN ÇİÇƏK

Qayalarda bitən çiçək,
Eşq qəlbini gəmirdimi?
Deşdin qayanın qəlbini,
Sənin sevgin dəmirdimi?!

Lap doğrusu mat qalmışam
Bu dünyanın xislətinə.
Necə oldu belə gözəl,
Düşdü qaya qismətinə?!

Həyat səni çaşdırıbdı -
O daş sənin ərin deyil.
Qayalarda bitən çiçək,
Qaya sənin yerin deyil.

Niyə qaçdın çəmənlikdən
Bu daşların arasına?
Leyli olub vurulubsan
Bu qayanın harasına?

Eşq dediyin dəlilikdi;
Leyli dəli, Məcnun dəli.
Sən də qaçdın qayalığa,
Birdəfəlik oldun dəli!

Nə qədər seçib, sevən var,
Ağlın itirib, dəlidi.
Dəlilərin xoşbəxtliyi
Təkcə Allaha bəllidi.

Qayalarda bitən çiçək,
İndi mənə naz edirsən.
Gün vuranda elə bil ki,
Baş əyirsən, göz edirsən.

Burax getsin naz-qəmzəni,
Gəl heç çəkmə məni dara.
Birdən mən də vurularam
Qoşularam Məcnunlara.

Baxışların söyləyir ki,
Qayanın qəlbi daş deyil,
Kirpiyində bir damcı var,
Demək o şehdir, yaş deyil.

Çox nazikdir ləçəklərin,
Sanki kəpənək pəridi,
Səni verdim bir gözələ
Önümdə mum tək əridi.

Zərif-zərif titrəyirsən,
Naz edirsən küləklərə.
Qayaları deşən gözəl,
Tez yol tapır ürəklərə.

## AĞ DƏNİZ

Salamat qal, ağ dəniz,
Hər dalğası ağ gədik!
Çox qaldıq sahilində,
Deyəsən ağ eylədik.
Səni seyr eləmişəm,
Gecələr sübhə kimi.
Açıldın qabağımda
Hər səhər süfrə kimi.

Qulağımda sübhəcən
Ləpələrin səsidi.
Onların pıçıltısı
Bir sevgi nəğməsidi.

“Gedirəm” kəlməsini
Sən dilimdən alınca
Şahə qalxır dalğalar.
Uçmaqmı istəyirdin
Bakıyacan dalımca?!

Hər dalğandan sahildə
Balaca bir daş qaldı.
Hər daşın yanağında
Bircə damla yaş qaldı.

Mən gözəl görməmişəm
Sən nəmdə, sən biçimdə,
Ürəyim burda qalır,
Dalğaların içində.

Daha bəsdi, boynumdan,
Aç o ağ qollarını.
Qaragözlü nəvələr
Gözləyir yollarımı.

Uçduğumuz təyyarə,
Dəyir ağ buludlara.
Saçındımı sərmisən,
Mən getdiyim yollara?!